CEPEJ(2019)8

14 iyun 2019-cu il

**ƏDALƏT MÜHAKİMƏSİNİN SƏMƏRƏLİLİYİ ÜZRƏ AVROPA KOMİSSİYASI (CEPEJ)**

# Mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti
# CEPEJ-in mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsi

## Mediasiya təlimi proqramlarının hazırlanması və monitorinqi üzrə təlimatlar

*Sənəd Beynəlxalq Mediasiya İnstitutu ilə birgə hazırlanmışdır*

*CEPEJ-in 32-ci plenar iclasında qəbul edilmişdir*
*Strasburq, 13 və 14 iyun 2019-cu il*

*Bu tərcümə Avropa İttifaqı və Avropa Şurasının maliyyə dəstəyi ilə hazırlanmışdır. Onun məzmununa görə yalnız Avropa Şurası məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir.*

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

Bu sənədin məqsədi üzv dövlətlərin hökumətlərinə və mediasiya sahəsində maraqlı tərəflərə mediatorların səmərəli və keyfiyyətli təlim proqramlarının necə hazırlanması və dəstəklənməsi, minimum təlim standartının uzlaşdırılması və hər bir üzv dövlətin yurisdiksiyasında adekvat sayda yaxşı təlim keçmiş mediatorların olmasının təmin edilməsi ilə bağlı təlimatlar təqdim etməkdir.

Mübahisələrin birgə həllində və danışıqlar prosesində iştirak edən mediatorlar, vəkillər və digərləri üçün qlobal peşə standartlarının hazırlanması sahəsində Beynəlxalq Mediasiya İnstitutunun (BMİ) təcrübəsi nəzərə alınaraq, bu alət onunla birgə işlənib hazırlanmışdır.[1]

Bu sənəd "CEPEJ-in mediasiyaya dair rəhbər prinsipləri"nə (1. Mövcudluq) uyğun olaraq hazırlanmışdır.

## 1. Təlim proqramlarının qeydiyyatı

Bəzi yurisdiksiyalarda mediasya üzrə təlim kurslarının bir növ formal tənzimlənməsi mövcud ola bilər. Bu, peşə qurumu vasitəsilə özünütənzimləmə və ya müvafiq dövlət qurumu/Hüquq Məsələləri və ya Ədliyyə Nazirliyi tərəfindən birbaşa tənzimləmə formasında ola bilər. Belə kənar qeydiyyat forması mövcud olduqda, o, istənilən yurisdiksiyada bütün kurslara obyektiv şəkildə tətbiq oluna bilən minimum təlim standartlarını təmin edir. O təkcə yeni müdavimlər üçün başlanğıc nöqtəsi rolunu oynamır, həm də ümumi təlim standartlarını yüksəltməyə kömək edə bilər.

Əgər yurisdiksiyada təlim kursunun qeydiyyata alınması tələbi varsa, təlim xidməti göstərənlər ona əməl etməlidir.

## 2. Təlim xidməti göstərənlər

İstər dövlət, istərsə də özəl (kommersiya və ya qeyri-kommersiya) qurumlar mediasiya üzrə təlim kursları üçün akkreditasiyanı təmin edə və özləri də akkreditasiya olunmaq hüququna malik ola bilərlər.

Məsləhət görülür ki, akkreditasiya orqanı öz müstəqilliyini təmin etmək və haqsız rəqabətdən qaçınmaq üçün təlim xidməti göstərən qurum qismində çıxış etməsin.

Təlim və praktika arasında sıx əlaqəni nəzərə alaraq, tövsiyə olunur ki, təlim modullarının tədrisi başa çatdıqdan sonra iştirakçıların müşahidəçi və ya müştərək mediator kimi fəaliyyət göstərməsini asanlaşdırmaq və dəstəkləmək üçün təlim xidməti göstərənlərin həm də mediasiya xidməti göstərənlər kimi fəaliyyət göstərməsinə maneə yaradılmasın.

Təlim xidməti göstərənlər eyni vaxtda mediasiya xidməti göstərənlər deyilsə (məsələn, universitetlərin və institutların nümnunəsində belə ola bilər), onlar kifayət qədər praktik təlimləri təmin etməlidirlər.

## 3. Kursun məzmunu

Təlim xidməti göstərənlər kursa özlərinin sosial, mədəni və hüquqi kontekstindən irəli gələn tələbatlara, eləcə də kursun ruhuna uyğun məzmunu daxil etməkdə sərbəst olsalar da, mediasiya bacarıqları üzrə istənilən təlim proqramı üçün fundamental əhəmiyyət daşıyan və əhatə edilməli olan müəyyən mövzular vardır. Bunlar aşağıdakı "Mediatorlar üçün baza səviyyəli təlim proqramı"nda göstərilən mövzulardır.

Konkret üzv dövlətin milli normativ aktları aşağıdakı Əlavədə qeyd olunmayan digər mövzuların əhatə olunmasını tələb edərsə, təlim xidməti göstərənlər həmin mövzuları da öz mediator hazırlığı kursuna daxil etməlidir.

Təlim xidməti göstərənlər təlimin əhatə dairəsini genişləndirərək bilik və bacarıqların inkişafı üçün digər mövzuları da əhatə edə bilərlər.

Təlimin məzmunu və təlim metodologiyası müdavimlərin xarakteristikalarını, ilkin bilik səviyyəsini və praktik təcrübəsini nəzərə almalıdır.

Mediatorlar üçün təlim proqramı bu sahədəki qabaqcıl təcrübədən yararlanmalı, onu aşkarlamalı və təşviq etməlidir.

[1] BMİ həmçinin maraqlı tərəfləri bir araya gətirir, prosesi anlamalarına kömək edir və mediasiya bacarıqlarını yayır və bütün bu xidmətləri müstəqil əsasda təqdim edir: http://www.imimediation.org/

Ciddi şəkildə tövsiyə olunur ki, mediasiya təlimindən sonra nəzarət, mentorluq və davamlı professional inkişaf, mediatorun peşə biliklərinin və bacarıqlarının möhkəmləndirilməsi, təkmilləşdirilməsi və yenilənməsi həyata keçirilsin və bu sahədə yeni inkişaf prosesləri haqqında məlumatlandırma aparılsın.

### 4. Bacarıqlar modeli

Təlim proqramına bacarıqlar modeli daxil edilməli və onlar kurs boyu istifadə edilməlidir ki, iştirakçılara hansı mediator bacarıqlarına yiyələnməli olduqları aydın olsun. O həmçinin iştirakçılar üçün ardıcıl olaraq məlumatlandırma, təlimatlandırma, qiymətləndirmə və əks əlaqəni təmin etməkdən və bacarıqları aydın meyarlar toplusu əsasında qiymətləndirməkdən ötrü təlimatçılar, təlimçilər və qiymətləndiricilər tərəfindən istifadə edilə bilər.

Müvafiq olaraq, təlim kursu effektiv mediatorun malik olmalı olduğu əsas bacarıqları aydın və qısa şəkildə müəyyən edən "bacarıqlar modelinə" malik olmalıdır. Bu model kursun məzmununa və bacarıq tələblərinə uyğun olmalıdır.

Kursda istifadə üçün bacarıqlar modelini hazırlayarkən təlim xidməti göstərənlər aşağıdakılara istinad edə bilərlər:

- Mediator bacarıqlarının öyrədilməsi üzrə öz fərdi və təşkilati biliklərinə;
- Mövcud xarici mənbələrə, o cümlədən müvafiq qanunvericiliyə və digər dərc olunmuş modellərə.

### 5. Kursa qəbul və kursun əlçatanlığı

Bir qayda olaraq, baza səviyyəli mediasiya kursuna yazılmaq üçün öncə bu sahədə ixtisasa və ya təcrübəyə malik olmaq kimi xüsusi tələblər yoxdur.

Daha təkmil və ya ixtisaslaşdırılmış mediasiya təlimi kursları isə, əksinə, iştirakçılarda mediasya üzrə bilik və/yaxud təcrübənin olmasını tələb edir.

Mediasiya iştirakçılarının təlim fəaliyyətlərində, xüsusən də rollu oyunlarda sərbəst iştirak edə bilmələrini təmin etmək üçün kursun keçirildiyi dili sərbəst bilmələri tələb olunur.

### 6. Xidmət haqları

Mediasiya təlimi xidmətinin haqları öyrənmə, praktik təcrübə və qiymətləndirmənin, eləcə də təlim materiallarının dəyərini əhatə etməlidir.

Üzv dövlətlər, məqsədəuyğun olduqda, məsələn, ümumən mediasiyanı tətbiq etmək və yaymaq və ya konkret layihələr və/yaxud hüquqi təşəbbüslər hazırlamaq üçün lazım gəldikdə mediasiya təlimi xidmətlərini maliyyələşdirməyə təşviq edilməlidirlər.

Üzv dövlətlər və mediasya təlimi xidmətləri göstərənlər iştirakçıların maddi ehtiyaclarına uyğun olaraq təqaüdlər verməyə təşviq edilməlidirlər.

### 7. Kursun müddəti

Müvafiq metodologiyalardan istifadə edilməklə kursun lazımi məzmunu adekvat şəkildə əhatə etməsi üçün kursun dərslərində xeyli tədris saatı nəzərdə tutulmalı və onların müddəti 40 saatdan az olmamalıdır, belə ki, bu təlimlərin insanlara mediator bacarıqlarını yalnız baza səviyyəsində öyrətmək məqsədi daşıdığını nəzərə alsaq, bu müddət mediator bacarıqlarının praktik aspektlərinin tədrisi və tətbiqi üçün qəbul edilə bilən minimum meyardır. Kursa qədərki hazırlıq, nahar müddəti və fasilələr buraya daxil deyil.

Lakin daha çox praktik təcrübənin iştirakçılar üçün daha yaxşı öyrənmə imkanları yaradacağını nəzərə alsaq, 40 saatlıq bu minimum səviyyə təlim xidməti göstərənlərin daha artıq müddət ərzində praktik təlim keçməsinə mane olmamalıdır. Buna görə də, mümkün olduqda, təlim saatlarının 40-dan çox olması təklif olunur.

### 8. Qrupun həcmi

Kursun keyfiyyətinə təsir edən əsas amillərdən biri müdavimlərin bir-biri ilə və təlimçilərlə qarşılıqlı əlaqəsi üçün kifayət qədər imkanların olmasını təmin etməkdir. Ümumiyyətlə qəbul edilir ki, qrupun həcminin həddən artıq böyük olması və bir müdavimə düşən təlimçi sayının faizinin aşağı olması bu kursun keyfiyyətinə xələl gətirə bilər.

Kurslardakı qrupların maksimum həcminin 30 müdavim olması tövsiyə olunur, ideal halda hər 6 iştirakçıya 1 təlimçi düşməlidir, amma bu say maksimum 10 müdavimə qədər dəyişə bilər.

İştirakçılarla təlimçilər arasında nisbəti təyin edərkən nəzərə alınmalı olan amillərdən bəziləri bunlardır:

- bütövlükdə qrupun həcmi;
- öyrətmə, təlimatlandırma, qiymətləndirmə fəaliyyətlərinin və günlərin sayının bölgüsü;
- təlimçi köməkçilərinin, fasilitatorların və ya təlimatçıların olması.

Məsələn, qrup yalnız 12 müdavimdən ibarətdirsə, təqdimatların onlara təqdim edilməsi üçün 1:12 nisbəti uyğun ola bilər. Lakin müdavimlər rollu oyunlar oynayan zaman bir və ya iki təlimatçı cəlb oluna bilər.

### 9. Tədris prosesinə münasibətdə ümumi yanaşma

Mediator bacarıqları üzrə təlim kurslarının mediasiyanı akademik mövzu kimi öyrətməyə deyil, iştirakçıları mediasiya fəaliyyətinə hazırlamağa yönəldiyini nəzərə alsaq, kurs müştərək, interaktiv və müdavim yönümlü olmalıdır. Bunu təmin etmək üçün müxtəlif tədris metodologiyalarından, o cümlədən mühazirə, videolar, interaktiv tapşırıqlar, fərdi iş, qrup müzakirəsi, cütlük halında söhbət və rollu oyunlar istifadə edilməlidir. Effektiv mediatorluq prosesini və bacarıqlarını öyrətmək üçün nəzərdə tutulmuş hər hansı kursun praktiki hissəsinə gəlincə, təlimin keçirilməsinə münasibətdə bu müxtəlif yanaşmalara aşağıdakı faiz nisbətində vaxt sərf edilməlidir:

- Mühazirə/bilik vermə/təqdimat – təxminən 10%;
- Tapşırıq və müzakirələr – təxminən 40%;
- Rollu oyunlar, təlimatlandırma və əks əlaqə – təxminən 50%.

### 10. İştirakçılar üçün materiallar

Kursdan əvvəl kağız və ya elektron formada paylana bilən material növlərinə aşağıdakılar daxildir:

- Kursun tədris vəsaiti/iş dəftəri;
- Yardımçı materiallar, məsələn, rollu oyunlar üçün ümumi təlimat;
- Mediasiya qaydaları və prosedurları, müvafiq qanunvericilik;
- Akademik məqalələr və dərsliklər.

Kursdan əvvəl hazırlıq tələb olunduqda, iştirakçılara yetərincə hazırlaşmaq üçün kifayət qədər müddət ərzində dolğun materiallar verilməlidir. Təlimat olaraq, tövsiyə edilir ki, bu, kursdan ən geci iki həftə əvvəl həyata keçirilsin.

Eynilə, iştirakçıların rollu oyunlardan əvvəl öz rollarına hazırlaşması tələb olunduqda, rol ifaçılarına hazırlaşmağa imkan vermək üçün onlara qabaqcadan rollu oyun üzrə konfidensial qısa mətnlər təqdim edilməlidir. Bunun kursdan ən geci bir həftə əvvəl edilməsi tövsiyə olunur.

### 11. Rollu oyunların təşkili

Rollu oyunlar iştirakçıların simulyasiya edilmiş mühitdə geniş çeşidli mediasiya bacarıqlarını tətbiq etmələri, həmçinin təlimatçı kimi fəaliyyət göstərən təcrübəli mediatorun rəy və təlimatlarından faydalanmaları üçün istifadə olunur. Müvafiq olaraq, rollu oyunlar elə planlaşdırılmalı və aparılmalıdır ki, iştirakçılar üçün maksimum öyrənmə imkanı yaransın.

Burada rollu oyun dedikdə elə simulyasiya olunmuş hal nəzərdə tutulur ki, mediator geniş çeşidli mediator bacarıqlarını tətbiq etmək imkanına malik olur və ola bilsin ki, bunu prosesin bir neçə mərhələsində edə bilir. Bu, müəyyən vərdişin işlənməsi üçün daha qısa ssenariyə əsaslanan rollu oyundan, qısa məşqdən və ya epizodik tapşırıqdan, məsələn, aktiv dinləmə və ya reallıq testi məşğələsindən fərqləndirilməlidir.

Kurs çərçivəsində rollu oyunları tərtib edərkən aşağıdakılar nəzərə alınmalıdır:

- Kursdakı ikitərəfli mediasiya üçün hər bir rollu oyun maksimum altı nəfərdən ibarət olmalıdır. Bu, yeni mediatorun adekvat şəkildə məşq etməsi və digər iştirakçıların rollu oyunçular kimi maksimum cəlb edilməsinə imkan yaratmaq üçün rolların idarə oluna bilməsi məqsədilə tövsiyə olunur;
- Rollu oyunlarda mediasiya müddətləri ən azı 45 dəqiqə olmalıdır ki, mediasiya prosesi davam etdikcə mediatorun bir sıra bacarıqları tətbiq edə bilməsinə kifayət qədər vaxt ayrılmış olsun;

- Ən azından bütün rollu oyunların minimum 50%-inə təcrübəli təlimatçı/təlimçi nəzarət etməli və onlardan ən azı 50%-ində rollu oyunun faktiki müddəti ərzində nəzarətçi təlimatçı iştirak etməlidir. Bu, rollu oyunlar üçün nəzarət və təlimatlandırmanın minimum səviyyəsidir və təlim xidməti göstərənlər təlimatçı tərəfindən təlimatlar verilən və ya nəzarət edilən rollu oyunların aparılmasının mümkün olan ən yüksək səviyyəsinə nail olmağa can atmalıdırlar;
- Rollu oyunlar qiymətləndirmə üçün istifadə edildikdə, rollu oyunun vaxtının 100%-i ərzində prosesə qiymətləndirici tərəfindən nəzarət edilməlidir;
- Bütün iştirakçılara münasibətdə müxtəlif təlimatlandırma yanaşmalarının tətbiq edilməsini təmin etmək üçün təlimatçılar qruplar və iştirakçılar arasında növbəlilik qaydasında dəyişdirilməlidir;
- Qiymətləndirməni özündə ehtiva edən kurslarda iştirakçını təlimatlandıran hər hansı təlimatçı/təlimçi sonradan həmin iştirakçının qiymətləndirilməsinə cəlb edilməməlidir;
- Kurs boyu rollu oyunlarda bütün iştirakçıların öz iştirakçı həmkarlarının mümkün qədər geniş dairəsi ilə işləməsi təmin edilməlidir;
- Prosesin ədalətliliyini və iştirakçıların bərabərliyini təmin etmək üçün bütün iştirakçılar rollu oyunlarda mediasiya fəaliyyətini eyni həcmdə həyata keçirməlidir;
- Rollu oyunlar mövzusuna görə müxtəlif olmalı və mediasiya prosesinin müxtəlif mərhələlərini məşq etməyə imkan verməlidir.

## 12. Əks əlaqə (rəylərin təqdim edilməsi)

İştirakçılar öyrənmə fəaliyyətini təkcə mediasiya bacarıqlarını tətbiq etməklə deyil, həm də kurs boyu təlimatçı rolunda çıxış edən təcrübəli mediatorlarla əks əlaqə vasitəsilə, yəni onların rəyini almaqla həyata keçirirlər. Təlim proqramları iştirakçılar üçün əks əlaqə imkanlarını təmin etməlidir. Təlim çərçivəsində yanaşmanın ziddiyyətsizliyini təmin etmək üçün rəylər bacarıqlar modelindən (yuxarıda 4-cü bənddə qeyd olunub) istifadə edilməklə təqdim edilməlidir. Effektiv əks əlaqənin təmin edilməsi üçün təlimatçılara təlim keçirilməlidir.

Rəy təqdim etmək üçün müxtəlif üsullardan, o cümlədən aşağıdakılardan istifadə edilə bilər:

- Rollu oyun zamanı qrupun təlimatlandırılması. Bu halda əks əlaqə təkcə mediator kimi çıxış edən iştirakçı üçün deyil, həm də rollu oyuna cəlb edilən digər iştirakçılar üçün faydalı ola bilər;
- Rollu oyundan sonra fərdi əks əlaqə. Bu, fərdin yerinə yetirdiyi iş ilə bağlı daha məqsədyönlü və təfərrüatlı rəy əldə etməyə imkan verir və kursun gedişində, xüsusən də iştirakçının aparılacaq qiymətləndirməyə hazırlaşdığı zaman davranışını korrektə edib dəyişməsi imkanlarını artıra bilər. Belə bir tələb qoyulmasa da, kurs rəhbərləri öz proqramlarını elə tərtib etməyə çalışmalıdırlar ki, orada ən azı bir fərdi rəy təqdim edilməsi imkanı nəzərdə tutulsun;
- İştirakçının işinə dair yazılı rəydən istifadə etmək, xüsusən də bunu kursun qiymətləndirmə elementi çərçivəsində etmək tövsiyə olunur.

## 13. Fəaliyyətin qiymətləndirilməsi və akkreditasiya

Əgər kurs mübahisəni səriştəli şəkildə həll etmək üçün iştirakçının lazımi bacarıq və biliyə malik olmasını qiymətləndirmək, sertifikatlaşdırmaq və ya akkreditasiya etmək üçün nəzərdə tutulubsa, o zaman kurs iştirakçının mediator bacarıqlarının kursun bacarıqlar modelinə uyğun olaraq faktiki qiymətləndirilməsini özündə ehtiva etməlidir. Mediator bacarıqlarının qiymətləndirilməsi həyata keçirilərkən rollu oyun zamanı iştirakçının mediator qismində işinin effektivliyi nəzərə alınmalıdır.

Qiymətləndirmə prosesini hazırlayarkən aşağıdakılar nəzərə alınmalıdır:

- Baxmayaraq ki kurs boyu müəyyən formada aparılan davamlı qiymətləndirmə bütövlükdə qiymətləndirmə prosesinin bir hissəsi kimi nəzərdə tutula bilər, rollu oyun zamanı yalnız mediator qismində yerinə yetirilən işə qiymət verilməsinə əsaslanan ən azı bir ayrıca qiymətləndirmə aparılmalıdır;
- Qiymətləndiriləcək fəaliyyətlər lentə alına və sonradan qiymətləndirilə bilər, hərçənd ki, ümumiyyətlə canlı qiymətləndirmələr daha məqsədəuyğundur;
- Baxmayaraq ki minimal say kimi 1 qiymətləndirmə müəyyən edilib, müxtəlif qiymətləndiricilər tərəfindən qiymətləndirilən hər bir iştirakçı üçün iki fərqli qiymətləndirmə sessiyasının keçirilməsi tövsiyə olunur. Bu, ədalətliliyə riayət edilməsinə yardımçı olacaq və qiymətləndiricinin qərəzliliyinin qarşısını alacaq. Yaxud alternativ olaraq, aparılmış qiymətləndirmə iki qiymətləndirici tərəfindən dəyərləndirilə bilər;

- Tövsiyə olunur ki, rollu oyunun qiymətləndirilməsi zamanı ən azı rollu oyunun bir saatlıq müddəti qiymətləndirilsin, barışıq sazişinin tərtib edilməsinə sərf olunan müddət buraya daxil deyil.

Əgər mediasiya sahəsində biliklər də qiymətləndiriləcəksə, bu qiymətləndirnə yazılı və ya şifahi test vasitəsilə, yaxud kursdan əvvəl və ya sonra verilən tapşırıqlar vasitəsilə həyata keçirilə bilər və təlim xidməti göstərənlərin bacarıqlar modelində müəyyən edilmiş bilik tələblərinə uyğun aparılmalıdır.

### 14. Şikayətlərin verilməsi və apellyasiya siyasəti

Bütün kurslarda kursun keyfiyyətindən narazı qalan iştirakçılar üçün aydın şəkildə ifadə edilmiş yazılı şikayət vermə siyasəti olmalıdır.

Bundan əlavə, qiymətləndirmə elementini özündə ehtiva edən kurslarda qiymətləndirmənin nəticəsindən narazı qalan iştirakçılar üçün aydın şəkildə müəyyən edilmiş apellyasiya və ya yenidən baxma prosesi nəzərdə tutulmalıdır.

### 15. Təlimçilər, təlimatçılar və qiymətləndiricilər (TTQ-lər)

Təlim proqramının gedişində təlim xidmətləri göstərən şəxsləri rollarına görə üç əsas qrupa bölmək olar:
- təlimçi – proqramda müəyyən edilmiş bacarıqları və biliklərin məzmununu təqdim edir;
- təlimatçı – mediator rolunda iştirakçının fəaliyyətini adətən rollu oyun zamanı müşahidə edir və iştirakçının mediator qismində bacarıqlarını təkmilləşdirmək üçün rollu oyunun gedişində və ondan sonra ona təlimat və rəy verir;
- qiymətləndirici – iştirakçının fəaliyyətini müşahidə edir və onun bacarıqlarının formal qiymətləndirilməsini həyata keçirir. Qiymətləndirici həmçinin rəy bildirə bilər ki, bu da adətən qiymətləndirmənin sonunda təqdim edilir.

*Hazırlıq keçmək*
Təlimçi, təlimatçı və ya qiymətləndirici (TTQ) kimi fəaliyyət göstərmək istəyən hər kəs mediasiya üzrə təlim kursunda uğurla iştirak etməli, yurisdiksiyada mediatorun qeydiyyatdan keçməsi tələb olunduğu hallarda isə təlimçilər, təlimatçılar və qiymətləndiricilər qeydiyyatdan keçmiş mediator olmalıdırlar. Onlar həmçinin öz rollarını yerinə yetirməkdən ötrü təlimçilər üçün kifayət qədər təlimlərdə iştirak etməlidirlər. Bundan sonra onlar özlərinin ilk kurslarında təcrübəli TTQ-nin kifayət qədər müşahidəsi altında olmalıdırlar və bu TTQ onlar barəsində rəy verə biləcək və onların iştirakçılara keyfiyyətli xidmət göstərəcəyinə zəmanət verə biləcək şəxs olmalıdır.

*Mediator kimi fəaliyyətdə olmaq:*
İdeal halda, TTQ-lər formal olaraq mediator təyin edilməzdən əvvəl öncəki üç ilin hər birində minimum dörd saatlıq azı iki faktiki mediasiya prosesi aparmalıdırlar. Təyin edildikdən sonra onlar ildə minimum dörd saat davam edən iki faktiki mediasiya prosesi aparmalı və ildə altı saat ərzində peşə bacarıqlarının inkişafı ilə məşğul olduqlarını nümayiş etdirə bilməlidirlər.

*TTQ kimi fəaliyyətdə olmaq:*
TTQ hər iki ildən bir ən azı bir dəfə baza səviyyəli mediator bacarıqları üzrə təlim kursu və ya təkmilləşdirmə kursu keçirməlidir. Təlimatçılar və qiymətləndiricilər iki il ərzində ən azı dörd rollu oyun sessiyasında təlimatlandırmanı və/yaxud qiymətləndirməni həyata keçirməlidirlər.

Təlimçinin fəaliyyəti ilə bağlı kurs iştirakçılarından davamlı rəy alınmalı və kursu keçirənlərə təqdim edilməlidir. TTQ-lərin həmkarlarının rəyi də nəzərə alınmalıdır.

### 16. Keyfiyyətin idarə edilməsi və keyfiyyətdə mükəmməllik beynəlxalq standartları

Təlimin yetərli məzmununu, təlimin təqdim edilməsini, effektivliyin qiymətləndirilməsini və akkreditasiyanı təmin etmək üçün keyfiyyətin idarə edilməsi və müstəqil monitorinq tədbirləri tətbiq edilməlidir.

Mediasiya üzrə təlim xidməti göstərənlər mediatorluq təlimi almaq istəyənləri iştirak etmək istədikləri kursun mümkün olan ən yüksək keyfiyyətli kurs olduğuna əmin etmək üçün kurslarını beynəlxalq standartlara uyğunlaşdırmağa təşviq edilirlər.

Təlim xidməti göstərənlər öz proqramlarının Beynəlxalq Mediasiya İnstitutunun Sertifikatlaşdırılmış Mediatorların Təlim Proqramı (BMİ-SMTP) çərçivəsində sertifikatlaşdırılmasını nəzərdən keçirə bilərlər.

BMİ-SMTP çərçivəsində uğurla qeydiyyatdan keçmə o deməkdir ki, təlim proqramları mediator hazırlığı üzrə müstəqil beynəlxalq standartlara cavab verir. Bu, təşkilatların öz işçilərini və xidmətlərini təklif etmək üçün istifadə edə biləcəyi keyfiyyət zəmanətidir; bu həm də həmin təşkilatların inkişaf etməsini və biznes uğurları ilə bağlı ən yüksək standartlara nail olmasını təmin etməyə kömək edir.

**Mediatorlar üçün baza səviyyəli təlim proqramı**

*“Mediasiya təlimi proqramlarının hazırlanması və monitorinqi üzrə təlimatlar”a Əlavə*

## 1. Biliklərin inkişaf etdirilməsi

Təlim proqramları ən azı biliklərin inkişaf etdiriləcəyi bu əsas sahələri əhatə etməlidir:

1.1. Münaqişə nəzəriyyəsi

1.2. Mübahisələrin ənənəvi həlli və mediasiya

1.3. Mediasiyanın əsasları:

2.1.1 Mediasiyanın əsas prinsipləri:

- a. Könüllülük
- b. Konfidensiallıq
- c. Mediatorun müstəqilliyi, qərəzsizliyi və neytrallığı
- d. Tərəflərin özünün qərar verməsi və prosesə nəzarət
- e. Tərəflərin bərabərliyi
- f. Kreativlik və dayanıqlılıq
- g. Çeviklik
- h. Qənaətcillik

1.3.2. Mediasiyanın məqsədləri

1.3.3. İşlərin mediasiya üçün uyğunluğunun qiymətləndirilməsində göstəricilər və əks-göstəricilər

1.4. Mediatorun əsas atributları:

- a. Mediatorun münasibəti və rolu
- b. Etibarlılığı
- c. Əsas bacarıqları və metodları
- d. Peşə etikası ilə bağlı atributlar
- e. Peşə tələblərinə uyğunluq və peşə praktikası

1.5. Mediasiyada tərəflərin, onların vəkilinin və digər iştirakçıların rolları

1.6. Mediasiya üslubları

1.7. Mediasiyanın mərhələləri:[2]

- a. Hazırlıq
- b. Açılış
- c. Tədqiq etmə
- d. Danışıqlar
- e. Razılaşma

1.8. Mediasyanın hüquqi bazası və mediasiyaya aid qanunvericilik, o cümlədən məcburi mediasiyaya və medisiyada iştirakdan imtinaya dair hüquqi bazanın nəzərdən keçirilməsi (əgər varsa)

1.9. Mediatorlar, hakimlər, vəkillər, mediasiya istifadəçiləri və mediasiyada digər maraqlı tərəflər arasında qarşılıqlı əlaqə

1.10. Mülki, ailə, cinayət və inzibati hüquqa aid işlərdə mediasiyanın əsas xüsusiyyətləri və fərqləri

[2] Mediasiya prosesi üçün bir çox müxtəlif faza modelləri mövcuddur və burada göstərilən model yalnız nümunə məqsədi ilə təqdim edilmişdir.

## 2. Praktik bacarıqların inkişafı üzrə təlim

Bacarıqların inkişafı baxımından hər hansı təlim proqramında əhatə edilməli, nümayiş etdirilməli və tətbiq edilməli olan əsas bacarıq mövzuları bunlardır:

a. Dinləmə bacarıqlarının formaları və ünsiyyət strategiyaları
b. Mediasiya prosesinin idarə edilməsi bacarıqları və üsulları, o cümlədən müştərək və ayrıca görüşlərin istifadəsi
c. Danışıqlar aparma strategiyaları və mübahisənin məzmununu idarə etmə bacarıqları
d. Tərəflərin müxtəlif davranışlarına reaksiya göstərmə üsulları
e. Problemləri həll etmə və qərar qəbul etmə bacarıqları
f. Mübahisələrin həlli strategiyası və metodlarının ağlabatan seçimi də daxil olmaqla, mübahisələri təhlil və idarə etmə bacarıqları
g. Müştərək mediasiya bacarıqları

Təlimçilər emosiyaların idarə edilməsi, çətin insanlarla işləmək, çıxılmaz vəziyyətlərə reaksiya göstərmək, neyrolinqvistik proqramlaşdırma və s. daxil olmaqla, müxtəlif bacarıqlar üzrə mövzuları təlimə daxil edə bilərlər.

Mediator bacarıqları üzrə təlim kursları müştərək, interaktiv və müdavim yönümlü olmalıdır. Bunu təmin etmək üçün müxtəlif tədris metodologiyalarından, o cümlədən mühazirə, videolar, interaktiv tapşırıqlar, fərdi iş, qrup müzakirəsi, cütlük halında söhbət və rollu oyunlar istifadə edilməlidir. Tövsiyə olunur ki, effektiv mediatorluq prosesini və bacarıqlarını öyrətmək üçün nəzərdə tutulmuş hər hansı kursun praktiki hissəsinin əhəmiyyətli qismi rollu oyunlara, kouçinqə və əks əlaqəyə, həmçinin müzakirələrə və tapşırıqlara ayrılsın.

## 3. İxtisaslaşdırılmış mediasiya təliminin xüsusiyyətləri

Mediasiya üzrə ixtisaslaşdırılmış təlim proqramlarına əlavə mövzular və bacarıqların inkişaf etdirilməsi təlimləri daxil edilməlidir.

Ailə işləri üzrə mediasiya təlimi üçün:

a. Ailə mediasiyasının əsas prinsipləri
b. Ailə hüququ üzrə yetərli biliklər
c. Ailə mediasiyası modelləri
d. Ailə işləri üzrə mediator bacarıqları
e. Konfidensiallıq prinsipinin məhdudiyyətləri
f. Uşaq yönümlü vasitəçilik və uşağın maraqlarının üstün tutulması
g. Uşaqların iştirakı
h. Qiymətləndirmə görüşləri (mediasiyaya qədərki mərhələ)
i. Məişət zorakılığı
j. Səlahiyyətlərdə disbalans
k. Transsərhəd mediasiya üsulları
l. Beynəlxalq hüquqi baza

Mülki işlər üzrə mediasiya təlimi üçün:

a. Fəaliyyət göstərdikləri sahələrdə ictimai qayda və sosial müdafiəyə aid qanunvericilik müddəaları haqqında, xüsusən aşağıdakılar barəsində kifayət qədər biliklərə malik olmaq:
    i. icarə və icarə haqqı mübahisələri
    ii. əmək hüququ sahəsi
    iii. istehlakçı hüquqları
b. Səlahiyyətlərdə disbalans
c. Mülki mediasiya modelləri
d. Beynəlxalq hüquqi baza

Cinayət işləri üzrə mediasiya təlimi üçün:

a. Cinayət mühakiməsi sistemi haqqında kifayət qədər biliklərin olması
b. Bərpaedici ədalət mühakiməsinin müxtəlif üsulları
c. Cinayət mühakimə icraatı ilə mediasiya arasında qarşılıqlı əlaqə

d. Zərərçəkənlər, hüquqpozanlar və mediasiya prosesində iştirak edən digər şəxslərlə ünsiyyət və iş bacarıqları və üsulları, o cümlədən zərərçəkənlərin və hüquqpozanların reaksiyaları ilə bağlı baza səviyyəli biliklərin olması
e. Ağır cinayətlər və yetkinlik yaşına çatmayanların iştirakı ilə törədilən cinayətlər üzrə mediasiya fəaliyyəti üçün mütəxəssis bacarıqları

İnzibati işlər üzrə mediasiya təlimi üçün:

a. İnzibati işlərdə mediasiyanın əsas prinsipləri
b. Konstitusiya hüququ və inzibati hüquq üzrə kifayət qədər biliklərin olması
c. Mediasiyanın konfidensiallığı və inzibati fəaliyyətin şəffaflığı prinsiplərinin balansı
d. İctimai maraqların sərhədləri
e. Mediatorun rolu – müstəqillik və qərəzsizlik prinsiplərinin xüsusiyyətləri
f. Qiymətləndirmə görüşləri (mediasiyaya qədərki mərhələ)
g. İnzibati sahədə mediatorun etik davranış kodeksi